# Bakı Dövlət Universitetində SDU-nun 60 illik yubileyinə həsr olunmuş "dəyirmi masa" keçirilib

# BDU ilə Sumqayıt Dövlət Universiteti uğurlu əməkdaşlıq edir



Bakı Dövlət Universitetində (BDU) Sumqayıt Dövlət Universitetinin (SDU) 60 illik yubileyinə həsr olunmuş "dəyirmi masa" keçirilib.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, 1962-ci ildən Azərbaycan Neft və Kimya İnstitutunun tədris bazası kimi fəaliyyətə başlamış SDU 1992-ci ildə müstəqil Azərbaycan Sənaye İnstitutuna çevrilib. Bu təhsil müəssisəsinin yaradılması Sumqayıtın iqtisadiyyatı və sənayesinin inkişafına kömək edən texniki sahələr üzrə kadrların hazırlanması prosesinə, ekoloji problemləri olan şəhərin sağlam zonaya çevrilməsinə, elm, təhsil və mədəniyyətin inkişafına təkan verib: "Ümummilli lider Heydər Əliyevin 13 iyun 2000-ci il tarixində imzaladığı "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə Azərbaycan Sənaye Universitetinin bazasında Sumqayıt Dövlət Universitetinin yaradılması mühüm hadisəyə çevrilib. Hazırda SDU beynəlxalq standartlara cavab verən, yüksəkixtisaslı kadrlara malik universitetə çevrilmək istiqamətində uğurlu tədbirlər həyata keçirir. İdarəetmə sistemində yeni yanaşmalar təhsilin, elmin inkişafına, müasir texnologiyaların tətbiqinə zəmin yaradır".

Rektor qeyd edib ki, ölkəmizin elm və təhsil siyasətinin inkişafına öz töhfələrini verən BDU ilə Sumqayıt Dövlət Universiteti arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlıq əlaqələri mövcuddur. Elmi əməkdaşlıq, müdafiələrin təşkili, elmi-pedaqoji heyətin BDU-da təcrübə keçməsi, konfranslarda iştirak bu iki ali təhsil ocağı arasında əlaqələrin daha da güclənməsinə xidmət edir.

SDU-nun rektoru Elxan Hüseynov qeyd edib ki, Sumqayıt Dövlət Universitetinin işçi heyətinin əksəriyyətini BDU məzunları təşkil edir. O, BDU-nun digər ali məktəblər üçün örnək olduğunu, iki universitetin gələcəkdə bir çox ortaq layihələrə imza ata biləcəyini vurğulayıb. Bildirib ki, SDU-da 7 fakültə, 29 kafedra, 6 elmi-tədqiqat laboratoriyası, Tədris-Metodik Mərkəz, Doktorantura və Magistratura şöbələri fəaliyyət göstərir. Universitetdə fəlsəfə və elmlər doktoru proqramları üzrə mütəxəssis hazırlığı aparılır.

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov vurğulayıb ki, paytaxta ən yaxın, sənaye müəssisələrinin mərkəzində yerləşən SDU həm humanitar, həm də tətbiqi ixtisaslar üzrə mütəxəssis hazırlayır. H.Məmmədov diqqətə çatdırıb ki, beynəlxalq layihələrin hazırlanmasında əsas meyarlardan biri "Industry application" - sənayedə tətbiq meyarıdır: "Bu mənada SDU-nun üstünlüyü böyükdür. Belə ki, SDU-nun Sumqayıtda yerləşən sənaye müəssisələri ilə olan əlaqələrindən və BDU-nun elmi potensialından istifadə etməklə böyük həcmli birgə qrant layihələri hazırlamaq, gənc tədqiqatçıları layihələrə cəlb etmək olar. Bu cür əlaqələr BDU və SDU məzunlarının yüksəkixtisaslı kadrlar kimi hazırlanmasına, ölkə və beynəlxalq səviyyədə elm və təhsil fəaliyyəti sahəsində universitetin mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına xidmət edəcək, gənc tədqiqatçıların yaradıcılıq potensialını inkişaf etdirəcək, elmi əlaqələri genişləndirəcək. Hazırda SDU-nun 26-dan çox məzunu BDU-da həm inzibati-idarəetmədə, həm də müxtəlif fakültələrdə elmi-pedaqoji fəaliyyətlə məşğuldur. BDU-da fəlsəfə doktoru proqramı üzrə təhsil alan 7 doktorantın elmi rəhbəri SDU-nun professorudur".

Daha sonra akademik Vasif Babazadə, SDU-nun Tarix və coğrafiya fakültəsinin dekanı Adil Baxşəliyev, BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, SDU-nun müəllimləri Osman Hacıyev və Sona Məhərrəmova çıxış edərək Sumqayıt Dövlət Universitetinin ölkənin ali təhsil sistemində oynadığı roldan, fəaliyyətindən, iki ali təhsil ocağı arasında əlaqələrin perspektivlərindən danışıblar.

